DÜNYA XƏBƏRLƏRİ

Oleşkidən 800 nəfər çıxarılıb

Oktyabr 23, 2026

Rusiyanın nəzarətindəki Oleşki şəhərindən təxliyə olunanları daşıyan konvoy.

Ukraynanın Xerson vilayətində yerləşən Oleşki şəhərində atəşkəs oktyabrın 27-dən noyabrın 1-dək qüvvədə olub və "sükut rejimi" artıq başa çatıb. Bunu Ukraynanın insan hüquqları üzrə müvəkkili **Dmitri Lubinets** bildirib.

Rusiya qoşunlarının işğalı altında olan Oleşkidə yerli əhali ərzaq çatışmazlığı şəraitində, aclıq həddində yaşayırdı. Atəşkəs ABŞ-nin Birinci ledisi **Melaniya Tramp**ın vasitəçiliyi ilə əldə olunub. O, X hesabında missiyanın uğurla başa çatdığını və 800-ə yaxın insanın təxliyə edildiyini yazıb. **"Ümid edirəm ki, Oleşkidə əldə olunan nəticə iki ölkə arasında sülh üçün əsas olacaq"**, – M.Tramp əlavə edib.

Oleşkidən çıxarılmış mülki sakinlər şənbə günü – oktyabrın 31-də Ukraynaya qayıdıblar. Əvvəlcə onları Rusiyanın Anapa şəhərinə aparıb, oradan təyyarələrlə Belarusa, daha sonra isə avtobuslarla Ukrayna ərazisinə çatdırıblar. Şəhər sakinlərinin bir qismi isə Rusiyaya getmək istədiyini bildirib.

Ukrayna Silahlı Qüvvələrinin Baş Qərargahı bəyan edib ki, Rusiya hərbçiləri humanitar fasilədən öz mövqelərini möhkəmləndirmək, bölmələrinin rotasiyasını aparmaq, logistika imkanlarını genişləndirmək, o cümlədən döyüş sursatı daşımaq üçün istifadə ediblər.

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur